

Fərid Hüseyn

# Şeir hekayəti

Mario Benedetti poetik süjet qurmağın ustasıdır. O, bəzən şeirdəki fikri sadalamalarla artırır, fəqət bu sadalamalar şeiri ağırlaşdırmır, əksinə oxucunu gözlənilən, yaxud gözlənilməz poetik məntiqə doğru aparır. Olduqca maraqlı üslubda yazılan Mario Benedetti şeirlərinin əsas özəlliyi, tapılan mənanın - əsas poetik fikrin şeir boyunca "gəzinməsi" hesabına başa gəlir. Yəni poetik qayəni müəllif "şeir ərzində" itirmir, onu idarə edir və ən əsası şairin ciddi cəhdlə qoruduğu mətləb şeiri irəliyə - çatacağı mətləbə doğru aparır. Bu, yaradıcılıq üslubu qətiyyən oxucunu yormur, əksinə bu tipli tamamlayıcı fikirlər şeirin məna yükünü daha da qüvvətləndirir, yaxud mövcud mənaya əlavə qüvvətləndirici fikirlər əlavə edir.

Mario Benedetti sevgi haqqında yazdığı bir şeirdə baş qəhrəmanın dilindən belə bir fikir səsləndirilir ki, mən sənin keçmiş, yəni təmiz halını yaddaşımda qorumuşam, nə zaman kiməsə aşiq olsan, gəlib əvvəlki halını məndən istəyə bilərsən, qətiyyən narahat olma ki, sən məni öz xəyalını belə əlimdən alaraq daha böyük tənhalığın əlinə verə bilərsən. Çünki mən qoruduğumu itirməkdən qorxmuram. Qəhrəmanın sevgilisinə təklifi həmin şeir boyunca bir neçə yerdə təkrarlanır və o təkrarların içində iztirab hissi, itkilər təbii şəkildə yer alır, bununla paralel olaraq poetik xarakterlər açılır, nəticədə baş verən hadisələr arasındakı zaman məsafəsi bütün şəffaflığı ilə görünür. Beləliklə, şeir özü-özlüyündə bir hekayətə çevrilir.

Benedettinin şeirləri mövzu və metodca o qədər rəngarəngdir ki, onun kitabını mütaliə edəndə sanki ayrı-ayrı üslubların cəmi olan xüsusi antologiya oxuyursan. O, hər şeiri bir hekayət kimi qurur - şeirin süjetində bəzən dinamik hadisə olmur, amma o cür şeirlərdə belə şeirə sığacaq qədər hadisə olur və həmin hadisə poetik xətt boyunca bir nöqtədən digərinə doğru yol alır. Bu tipli şeirin əsas üstünlüyü ondan ibarətdir ki, şeirdəki fikir süjetin imkanları ilə bərabər dəyişir və dərinləşir, sanki şair bununla da sadalamalardan, oxşar ifadələrlə güclü mənalar yaratmaq - fikri çatdırmaq zəhmətindən "xilas olur".

Benedetti şeirin hekayəsini iki əsas istiqamətə yönəldir - süjetin ifadə etdiyi mənaya və sonluğa. Amma onun şair kimi ustalığı orasındadır ki, süjetləri mürəkkəbləşdirmir, nəticədə şeirindəki poetik dil ağırlaşmır, yəni şeir şeirlikdən çıxmır, həyatiliyini, təbiilik gücünü itirmir. Ona görə də onun əksər şeirinin real mənzərəsi son dərəcədə aydın və inandırıcı həyat həqiqəti kimi qəbul edirik, şeir sadəcə ab-havası, poetik deyimləri ilə yox, qəmli hekayəsi, hüznü ilə də oxucunun könlünə hopur.

Bu tipli şeirlər (süjetli, hekayətli) yazmaq - belə bir üslub formalaşdırmaq çox çətindir, çünki bu şeirlər sonda alışılmış mənalarla tamamlanmır. Olur ki, bəzi poetik hekayətlərdə nəql edilən hadisələr, yer və adam adları şeirin ağırlığını artırır, sanki poeziya öz içərisinə daha çox nəsnəni toplayır, anacaq belədə şeir şəklində ifadəsi çətin olan məqamlar, axsamalar, qırıqlıqlar, müəllif tərəfindən "yumşaldılır". Məsələn, "İnci ildönümü" şeirində tez bitən və yaxud otuz il uzanan iki sevgi müqayisə edilir, daha sonra 30 ilik eşqə üstünlük verən müəllif o illərdə məhəbbətin keçdiyi yola işıq salır:

*Bundan şikayətlənə bilmərik,*
*otuz illik həyat,*
*bizi güc-bəlayla qucağına götürüb*
*ehmalca qoydu yerə.*
*O qədər,*
*o qədər çox maraqlandı ki, bizimlə,*
*Hər vaxt bir-birimizi kəşf etməyə*
*imkan yaratdı bizə.*
*Onsuz da biz bir-birimizdən uzaqlaşır,*
*sonra da darıxırıq,*
*insan kimdənsə darıxanda yaşadığını hiss edir.*

Bu hissə həmin şeirin daha lirik hissəsidir, şeirin ortalarında siyasi, ictimai, sosial həqiqətlər canlandırılır və yeni deyimlər yenə də bir çox mövzulardakı kimi şeirin rahat oxunmasına gətirib çıxarır.

M.Benedetti mövzu qıtlığı çəkməyən, rəngarəng mövzulara müraciət edən, hər mövzunu öz dilində "danışdırmağı" bacaran bir şairdir. O, poetik gücünü şeirdəki deyim tərzi, bənzətmə, ifadə özəlliyində deyil, ayrı-ayrı mövzularda ifadə edir. Ona görə də kitabında özünütəkrar, özünəilişmə, tükənmə yoxdur. Onun poetik dürüstlüyü mövzularına münasibətdə də özünü göstərir - oturuşmuş üslub, müəllifin daxili toxtaqlığı, geniş rakursdan baxmaq, fərdiyyəçilikdən uzaqlıq onu daha da sərbəstləşdirir, şair mövqeyini daha ağayana, müdrik şəkildə ortaya qoyur.

Kaspi 2020.- 8-10 fevral.- S.16.